***TARİXİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ***
***METHODS TEACHING HISTORY***

*UOT 373.1.02.:372.8*

***Kəmalə Sahib qızı Mustafayeva***
*Xəzər Universitetinin müəllimi*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/my-orcid?orcid=0000-0002-3059-0668*

# TARİXİN TƏDRİSİNDƏ TƏHSİLALANLARDA DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞDIRILMASI YOLLARI

***Камала Сахиб гызы Мустафаева***
*преподаватель Университета Хазар*
*докторант по программе доктора философии Азербайджанского Государственного Педагогического Университета*

# ПУТИ ФОРМИРОВАНИЯ МИРОВОЗЗРЕНИЯ ОБУЧАЕМЫХ ПРИ ПРЕПОДАВАНИИ ИСТОРИИ

***Kamala Sahib Mustafayeva***
*lecturer at Khazar University*
*doctorial student in the program of doctor of philosophy*
*at the Azerbaijan State Pedagogical University*

# WAYS OF FORMING THE WORLD VIEW OF STUDENTS İN TEACHING HISTORY

**Xülasə.** Dünyagörüşü təhsil və təlim prosesinin ayrılmaz parçasıdır. O, təhsilalanların yanaşma və baxışlarına təsir göstərə bilən mürəkkəb və dərin məfhumdur. Dünyanı dərk etməyə çalışan hər bir fərd istər-istəməz fəlsəfi düşüncələrin dərinliyinə qərq olur. Fərdlər hər bir problemə, hadisəyə, vəziyyətə məntiqi təfəkkür nöqteyi-nəzərindən yanaşır, onları tənqidi yaradıcılıqla öyrənir. İdrak nəzəriyyəsi ilə bilavasitə bağlı olan bu proses yeni reallığı tam dərk etməyən hər bir təhsilalanı yeni üsul və vasitələrlə məşğul olmağa sövq edir.
***Açar sözlər:*** *təhsil, dünyagörüşü, tarixin tədrisi, təhsilalanlar, təlim*

**Резюме.** Мировоззрение является неотъемлемой частью образовательного и учебного процесса. Это сложная и глубокая концепция, влияющая на подходы и взгляды учащихся. Каждый человек, пытающийся понять мир, неизбежно погружается в глубины философских размышлений. К каждой проблеме, событию, ситуации люди подходят с точки зрения логического мышления и изучают их с критическим творческим подходом. Этот процесс, напрямую связанный с когнитивной теорией, побуждает каждого обучаемого, не до конца понимающего новую реальность, использовать новые методы и средства.
***Ключевые слова:*** *образование, мировоззрение, преподавание истории, обучаемые, обучение*

**Summary.** Worldview is an integral part of the educational and learning process. It is a complex and deep concept that influences the attitudes and attitudes of students. Every person trying to understand the world inevitably plunges into the depths of philosophical reflection. People approach each problem, event, situation from the point of view of logical thinking and study them with a critical and creative approach. This process, directly related to cognitive theory, encourages every student who does not fully understand the new reality to use new methods and means.
***Key words:*** *education, worldview, history teaching, learners, learning*

Dünya təhsil işçilərinin əsas məqsədi təhsilalanların biliyini, bacarığını inkişaf etdirməklə onlarda geniş dünyagörüşü formalaşdırmaqdır. Bu baxımdan, məktəblərdəki fənlərin tədrisi şübhəsiz ki, təhsilalanların dünyagörüşünün daha da təkmilləşməsinə yönəlib. Tədqiq etdiyimiz problemlə bağlı ədəbiyyatları araşdırarkən həm Azərbaycanda, həm də xarici ölkələrdə dünyagörüşü anlayışının iqtisadi, siyasi, hüquqi, sosial, fəlsəfi, dini və digər aspektlərdə şərhlərinə xüsusi diqqət yetirildiyinin şahidi olduq. Lakin, çox təəssüflər olsun ki, insan həyatında misilsiz əhəmiyyəti olan dünyagörüşün mənimsənilməsinə aid sistemli bir tədqiqata rast gəlmədik. Doğrudur, ayrı-ayrı fənlərin mükəmməl öyrədilməsi nəticə etibarı ilə dünyagörüşünü formalaşdırılmasına zəmin yaradır. Tarix fənninin tədrisində təhsilalanlarda dünyagörüşün formalaşdırılması məsələsi ayrıca bir problem kimi tədqiq olunmalıdır.

Bütövlükdə ali məqsəd kimi təhsilin, xüsusilə, ümumi təhsilin mərkəzində insan amili, onun formalaşdırılması dayanır. "Ümumi təhsil ən kütləvi təhsil pilləsi olduğundan uşaqların, demək olar ki, əksəriyyəti üçün bu mərhələ bir "məhək daşı" rolunu oynayır, onların potensial imkanları, meyil və maraq dairəsi, mənəvi aləmi, psixoloji xüsusiyyətləri, əsasən, həmin dövrdə daha qabarıq şəkildə üzə çıxır" (4, s. 13).

Təhsilin keyfiyyəti səmərəli təhsil və təlim mühitinin yaradılması işindən xeyli asılıdır. Təhsil mühiti təlim mühiti ilə müqayisədə ümumi, mücərrəd, geniş, əhatəli olmaqla öyrənəni azad inkişaf etməyə, yaradıcı fərd olmağa həvəsləndirməli, həyatın özü olmalı, öyrənənlər həyatın içində olmalıdır. Təlim mühiti elə olmalıdır ki, şagirdlər məktəbdə həyat həqiqətlərini tapa bilmək üçün müstəqil düşünsün, qrup halında, kollektiv şəkildə əməkdaşlıq edə bilsin, qarşılıqlı hörmət və ünsiyyət şəraitində irəli sürülmüş problemləri (qoyulmuş sualları) həll edə bilsinlər. Düzgün təhsil və təlim mühiti şəraitində məktəb bütün diqqətini şagirdlərin hərtərəfli inkişafına, onların maraq və ehtiyaclarının təmin olunmasına istiqamətləndirməlidir. Belə olduqda, təhsilin məqsədi şagirdlərə biliklərin yalnız nəzəri cəhətdən deyil, praktikaya əsaslanmaqla, inkişafetdirici xarakterdə verilməsini təmin edə bilər. Təlimin təşkilində mənimsəməni təmin edən mühitin yaranması da mühüm əhəmiyyət kəsb edir. Şagirdlər alternativ versiyalardan birini seçməyə yönəldilməklə, problemin həllinə əsaslanan və ona imkan verən layihələrə cəlb edilməklə praktik məsələlərdən nəzəri prinsiplərə doğru (konkretdən mücərrədə) yönəldilir. Bu zaman müəllim şagirdləri problemin həllinə istiqamətləndirir, onlara məsləhətlər də verir. Demək istəyirik ki, təlim təkcə dərsliklərin müəyyən etdiyi biliklərə deyil, öyrənənlərin maraqlandıran, onları narahat edən problemlərə də yönəlməlidir. Araşdırmalar göstərir ki, təlim prosesində layihələr üsuluna üstünlük verilməklə, öyrənənlər problemlərin daha tez və müstəqil həllinə nail olurlar.

Dünyagörüşü – insanın bizi əhatə edən dünya haqqında ümumi təsəvvürlərimizin ümumi sistemini təşkil edir. Gündəlik həyatdakı davranışlarımızı müəyyən edən müxtəlifliklərin ümumi sistemini təşkil edir. Dünyagörüşün əsas məsələsi insanın dünyaya münasibəti və bundan doğan təkzibolunmaz reallıqlar məcmusudur. "Dünyagörüşü ictimai və fərdi şüurun əsası, eyni zamanda, insanın fəaliyyətinin dəstəkləyən bir prosesdir. Bir çox tədqiqatçılar dünyagörüşünün funksiyalarını humanizm, ictimai-akseoloji, mədəni-tərbiyəvi, informasiya olaraq hesab edir" (8, s 9). Dünyagörüşü insan həyatındakı yerini, rolunu müəyyənləşdirmək məqsədilə araşdırdığımız nəzəri-metodiki ədəbiyyatlar problemə müxtəlif aspektdən yanaşsalar da, insan üçün yetərli dünyagörüşün vacibliyi məsələsində yekdildirlər. Cəmiyyət təxminən beşminillik tarixində insanlar daimi olaraq dünyagörüşlərini genişləndirməyə, təkmilləşdirməyə səy göstəriblər. Dünyagörüşün mahiyyətindən yəni dünyagörüş ayrıca bir şəxsin, sosial qrupun və ya bütövlükdə cəmiyyətin fəaliyyətinin istiqamətləri və gerçəkliyə münasibətini müəyyən edən prinsiplər, baxışlar və əqidələrin məcmusudur. Dünyagörüşü yalnız insana məxsusdur. K. Marksın qədim yunan fəlsəfəsinin "düşünən başı" adlandırdığı Aristotelin (e.ə. 384-322) antropoloji konsepsiyasında insana ictimai sima, dövlət adamı, siyasi varlıq kimi baxılır (1, s. 63).

Aristotelin nöqteyi-nəzərinə görə insanın fərqləndirici əlamətlərindən biri də onun zəkasıdır, başqa sözlə, "insanın ilk növbədə ağılıdır". Mütəfəkkirin fikrincə, insan əqlə, zəkaya, dərrakəyə, intellektə malik ictimai heyvandır. Sosial-

lıq və zəka insanı heyvanlar aləmindən fərqləndirən iki başlıca keyfiyyətdir.

Dünyagörüşünə tədqiqat, təhlil, sintez və ümumiləşdirmə kimi sağlam düşüncənin struktur komponentləri daxildir. Biz, həmçinin, təlim prosesinin təşkilində yeni tədris metodlarını tətbiq etməklə təhsilalanları hadisə və proseslərə tənqidi və yaradıcı yanaşmaya sövq edirik. Bu baxımdan onların təlimdə əldə edəcəkləri elmi biliklər, nailiyyətlər dünyagörüşünün fəlsəfi əsasını təşkil edir.

Qeyd edilməsi vacib məqamlardan bir digəri isə təlim prosesinin heç də yalnız müasir dövrün məsələsi olmamasıdır. Bu məsələ bəşər cəmiyyətində inkişaf etmiş bütün sivilizasiyaları üçün əhəmiyyətli olmuşdur.

Təhsilin mənbəyinin qədim insanın öyrənmək ehtiyacından qaynaqlandığı hamıya məlumdur. Dünya dərk edildikcə öyrənmək bəşəri məqsədə çevrilib. Özünün təkamül dövrü ərzində insan ətraf aləmdə baş verən hadisələrin yaranma səbəblərini anlamağa, öyrənməyə, təcrübədə gördüklərindən nəticələr çıxarmağa cəhd edib və bu proses onun şüurlu varlıq kimi daha da yetkinləşməsinə müstəsna təsir göstərib. Mühafizə və müdafiə olunmaq, yaşamaq naminə bu dünyanın sirlərini dərk etmək ehtiyacı insanın getdikcə inkişafında və cəmiyyət həyatında münasibətlərin tənzimlənməsi, idarəçilik anlayışının əmələ gəlməsi istiqamətində hərəkətverici qüvvəyə çevrilib. Məhz bununla əlaqədar icma daxilində təsərrüfatların, təsərrüfat əlaqələrinin yaranması və ailələrdə böyüyən uşaqların ümumi əmək prosesinə cəlb edilməsi "təhsil" anlayışının tərkib hissəsi olan tərbiyənin elementlərinin (əmək bölgüsünə riayət, nizam-intizam, məsuliyyət hissi və s.) təşəkkülünə rəvac vermişdir.

Yunan mütəfəkkirlərindən Pifaqora görə, "öyrənən biliyin yatırıldığı bir gəmi kimi deyil, alovlandırılacaq bir məşəl kimi qəbul edilməlidir" (10, s. 169).

Təlim və tərbiyənin öyrənilməsi hələ qədim Roma və Yunan filosoflarının əsərlərində və ideyalarında öz əksini tapmışdır. Antik dövrlərdən başlayaraq artıq filosoflar fəlsəfi yanaşma və düşüncələri mifoloji yanaşmalardan ayırmağa başlamışdılar. "Artıq filosoflar dünyanı əsatir və inanclarla təsvir etməkdən imtina edib onun məntiqi əsasını tapmağa çalışırdılar. Dünyanın bütün aşkarlığı və reallığı ilə dərk edilməsi filosofların əsas məqsədlərindən idi" (5, s. 30). Yunan filosoflarından Parmenides "düşünmək elə var olmaqdır" şəklində qeyd etmişdir. Bu fikirlə anlamaq olur ki, biz də fərdləri məhz düşünməyə dolayı yolla dünyanı obyektiv olaraq dərketməyə sövq etməliyik.

Tədqiqat metodları idrak prosesinin inkişafını dəstəkləyir. Buna görə şagirdlərin dünyagörüşünün formalaşdırılmasında yeni təlim metodlarından xüsusilə, tədqiqatçılıq bacarıqlarını üzə çıxaran metod, üsul və vasitələrdən istifadə edilməlidir. Bu sayədə, şagirdlərinin idrak prosesini daha da aktiv saxlamaq və dünyagörüşünü zənginləşdirmək, düşüncələri üçün yeni və fərqli pəncərələr açmaq mümkündür. "Tədqiqatçılar tədrisdə empirik-nəzəri metodlarının tətbiqi ilə bunun mümkün olacağını qeyd edirlər" (9, s. 21).

Bu baxımdan yeni biliklərin əldə edilməsinə təkan verən metodlara "müsahibə, evristik müsahibə, təlimatlandırma, izahlı-illüstrativ, tədqiqatçılıq, problemli situasiya, müəllimin şifahi şərhi, kitab üzərində iş və s . metodları söyləyə bilərik. Həmçinin idrak prosesinin düzgün təşkili üçün təlim metodlarının bir-biri ilə əlaqəliyi vacib amildir. Burada şagirdin dünyanı dərk etmə prosesində yanaşmalarını ortaya çıxara biləcək metodları sintez şəkildə qurmaq ehtiyacı meydana çıxacaqdır" (3, s. 117-118).

Müasir dövrdə təlimin inkişafedici funksiyalarını həyata keçirən çoxsaylı texnologiyalar mövcuddur. Təlimin inkişafetdirici funksiyası fərdin intellektual inkişafındakı potensial imkanlardan maksimum səviyyədə istifadə edilməklə təlimin güccatan çətinlik səviyyəsində qurulması və təhsilalanın real səviyyəsinə əsaslanmaqla onların inkişafını sürətləndirməkdir. Bu baxımdan şagirdin əqli inkişafını maksimum dərəcədə təmin edən, bilikləri şüurlu surətdə mənimsəmələrinə səbəb olan, tədris işində onlarda müstəqillik fəaliyyətinin tərbiyə olunmasına köməklik göstərən təlim inkişafetdirici təlim adlanır. "Təlim və əqli inkişaf iki qarşılıqlı əlaqəli prosesdir. Bu prosesdə təlim aparıcı hesab olunur. Buna görə də təlim prosesi yüksək elmi səviyyədə həyata keçirilməlidir. İnkişafetdirici təlim nəinki biliklərin mənimsənilməsinin, eyni zamanda şagirdlərin əqli qabiliyyətlərinin inkişafının da idarə edilməsini nəzərdə tutur" (2, s. 115)

İnsan davranışını (iqtisadi və sosial) tədqiq edən alimlər idraki fəaliyyətin 3 prinsipdən:

məqsəd, fəaliyyət və nəticədən ibarət olduğunu və bu prinsiplərin insanın inkişafında və yeni təfəkkürün formalaşmasında mühüm rol oynadığını qeyd edirlər. Bu prinsiplər əslində insanların fəaliyyətinin, yaşamasının və inkişafının əsasını təşkil edir. R. Vudvortsun yeni ideyanın yaranmasını 3 mərhələyə: "hazırlıq", (ideya) "yetişmə, yetkinləşmə" (mənimsəmə, formalaşma) və "inkişaf" mərhələlərinə bölürdü. Bir sıra alimlər bu mərhələlərinə 4-cü mərhələni əlavə edir və bunu "yoxlama-sınaq" (tətbiq-səmərə) adlandırırdılar. "Hazırlıq" mərhələsində problemə (ideyaya) müxtəlif aspektlərdən baxılır və bu zaman meydana çıxan ziddiyyətli baxışlar içərisindən birinin "yetişməsi, yetkinləşməsi" baş verir və bundan sonra yetkinləşən fikrin, mülahizənin, hipotezin cəmiyyət üçün izahı və istifadəsi mümkün olan "inkişafı" baş verir. "Yoxlama-sınaq" mərhələsində isə yaranmış yeni biliyin (ideyanın) cəmiyyət tərəfindən qəbul edilməsi və istifadəsi baş verir. Bu mərhələdən sonra və ya aralıq mərhələlərdə proses təkrarlanır. Yeni bilik daha yenisinin yaranmasına səbəb olur. "Yaranan yeni biliklər insanların (cəmiyyətin), xalqların, millətlərin dünyagörüşü səviyyəsindən asılı olaraq müxtəlif problemlərin (iqtisadi, sosial, mənəvi, siyasi, psixoloji və s.) həllində istifadə edilir" (11, s. 5).

Tədqiq etdiyimiz problemlə bağlı tanınmış azərbaycanlı filosof Zeynəddin Hacıyev yazır: "dünyagörüşü hər dövrün tələblərinə, ehtiyaclarına uyğun şəkildə dəyişikliyə məruz qalır. Bütün dövrlər üçün ortaq və eyniləşmiş dünyagörüşü mövcud deyil" (7, s 8). Digər tədqiqatçıların fikrincə "dünyagörüşünün gerçəkliyə münasibət olduğu fikrini əsaslandırır. Onların fikrincə dünyagörüşü – fərdin, sosial qrupun, sinfin, bütövlükdə cəmiyyətin gerçəkliyə münasibəti və fəaliyyət istiqamətini müəyyən edən baxışlardır, ideya və normalardır" (6 s. 11).

N.Y. İsmayılov yazır: "Dünyagörüşün formalaşması məsələsi fəlsəfi problemlərin həlli istiqamətindən başlayır. Bu baxımdan, fəlsəfə elmi fərdin malik olduğu biliklər sisteminin və dünyanın elmi mənzərəsinin nəzəri bütövünü təşkil edir" (8, s. 7).

Dünyagörüşə sinergetik yeni yanaşmanı XXI əsr özü diktə edir. Düşüncəmizə görə əsas təhsilini orta məktəblərdə alan gənclər üçün vaxt itirmədən onlarda dünyanı obyektiv reallıqlar əsasında dərk etmələri üçün ən optimal variant dərslərin, dərsdənkənar və məktəbdənkənar tədbirlərin səmərəli təşkilidir.

Tarix dərslərində mövzuların məzmununa və məntiqi quruluşuna uyğun təlim metodu seçilməlidir. Hər bir mövzunun öyrədilməsində dərin təhlillərdən istifadə olunmalıdır. Bu məqsədlə, beyin həmləsi, müzakirələr, rollu oyunlar, təqdimatlar, tədqiqatın aparılması üsulundan, məntiqi və tənqidi təfəkkür proseslərinin inkişafına yönəldilmiş metodlardan, yaradıcılığın inkişafına yönəlmiş metod və üsullardan səmərəli istifadə olunmalıdır.

Tarix təlimində problemli təlim texnologiyasından və fənlərarası və fəndaxili əlaqələrdən istifadə təhsilalanlarda dünyagörüşün formalaşdırılmasına çox güclü zəmin yaradır. Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində həm Azərbaycan tarixi, həm də ümumi tarix (dünya tarixi) tədris olunur. Məntiqlə düşünsək, tədris olunan həmin tarix kurslarının məzmununda dünyagörüşü təşkil edən ictimai şüur formalarının məsinməsilməsinə birbaşa kömək edən mövzuların tədrisi xüsusiləşdirilməlidir. Yəni, həmin mövzuların tədrisində B. Blum taksonomiyasından istifadə edilməlidir.

Ümumtəhsil məktəblərində istifadə olunan tarix dərsliklərindəki materiallar aşağı siniflərdən başlayaraq bölmələr üzrə tədris olunur. Nümunə üçün dəyə bilərik ki, VI sinif şagirdlərinə qədim dövr tarixi öyrənilərkən siniflərin əmələ gəlməsi, dövlətin meydana çıxması, dövlətin idarə olunmasında qanunlardan istifadə olunması, dini inancların yaranması, mədəniyyətlərin formalaşması məsələlərinin tədrisində siyasi, hüquqi, texnoloji və estetik şüur formalarının ilk elementləri öyrədilir.

VII sinif şagirdləri V-XVI əsrlərdəki tarixi hadisə və prosesləri öyrəndikləri zaman quldarlıq cəmiyyətindən feodal münasibətlərinə keçid məsələlərini mənimsəyirlər. Feodal cəmiyyətinin özünəməxsus xüsusiyyətləri, feodal dövlətlərinin funksiyaları, feodal qayda-qanunlarının səciyyəvi cəhətlərinə dair biliklər VII sinif şagirdləri VI siniflərdə əldə etdikləri bilik və bacarıqları genişləndirir, inkişaf etdirir. Bu da onlarda dünyagörüşün inkişafına kömək edir, bu onlarda dünyagörüşün inkişafına kömək edir, bu prosesi davamlı edir. Orta əsrlərdəki cəmiyyətin siyasi, iqtisadi və mədəni həyatı haqqındakı bi-

liklər onlarda haqqında sistemli biliklərin yaranmasına zəmin yaradır. VIII siniflərdə XVI əsrdən XIX əsrin əvvəllərindən dövrü əhatə edən yeni tarixi dövrü öyrədir. Bu dövrün dünyagörüşü tamamilə yeni kontekstə meydana çıxır. Cəmiyyət elmi texniki inkişafla müşayiət olunur. Yeni dövrdə baş verən inqilablar, yeni dövlətlərin yaranması, hüquqi sistemlərin təkmilləşməsi VIII sinif şagirdlərdə yeni dövrün dünyagörüşü haqqında yetərli təəssürat yaradır.

Yuxarı siniflərdə şagirdlər (IX-XI siniflərdə) müasir dövr tarixi ilə tanış olurlar. Həmin dövrdəki dövlətlər arasındakı münaqişələr, müharibələr, sosial-siyasi proseslər, mədəniyyət sahəsindəki nailiyyətlər, yeni elmi texniki inkişaf, dövlətlərin inkişafı, dünyanın iqtisadi və siyasi mənzərəsindəki yeniləşmələrlə tanışlıq yuxarı sinif şagirdlərində müasir dövrün ictimai münasibətləri haqqında təsəvvürlər yaradır ki, bu təsəvvürlərin yaranması yeni dünyagörüşün formalaşmasına motiv yaradır. Bütün yuxarıdakı şərhlərimizin məqsədi ondan ibarət idi ki, məktəb tarix kurslarında şagirdlərin dünyagörüşünü formalaşdıracaq çox geniş imkanlar var. İctimai-humanitar fənlərin tədrisi şagirdlərdə humanist dünyagörüşün formalaşmasına birbaşa təsir göstərir.

Şagirdlərdə dünyagörüşün formalaşdırılmasını davamlı etmək üçün qabaqcıl tarix müəllimləri dərsdənkənar və məktəbdənkənar işlərin təlim-tərbiyəvi imkanlarından istifadə edirlər. Onlar məktəb diyarşünaslıq materiallarından, fakültativ məşğələlərin səmərəli təşkilindən sinifdənxaric oxulardan, tarixə həsr edilmiş gecələrdən, tarix dərnəklərindən, tarix olimpiadalarından istifadə etməklə şagirdlərin dünyagörüşünü daha da genişləndirirlər.

Dərsdənkənar tədbirlərin məntiqi davamı məktəbdənkənar tədbirlərdir. Belə tədbirlər içərisində tarixi abidələrə, müdafiə qalalarına, tarix muzeylərinə təşkil edilən ekskursiyalar şagirdlərin nəzəri cəhətdən əldə etdikləri bilikləri praktikaya tətbiqi məktəbdənkənar tədbirlərlə tamamlanır. Müşahidə və araşdırmalarımız göstərir ki, məhz əldə olunan həyati kəsb edən bilik və bacarıqlar təhsilalanlar üçün məhz dünyagörüşün formalaşmasına və genişlənməsinə xidmət edir.

Sual olunur, təhsil sahəsində çox geniş və çoxşaxəli olan dünyagörüşün hansı fərqli komponentləri formalaşdırılır? Fikrimizcə, bunlar aşağıdakılardan ibarətdir. Birincisi, bilik, ikincisi anlayışlar, üçüncüsü intellektual bacarıqlardır.

Tədqiqat nəticələrinə görə, "xüsusi bir fəaliyyət növü kimi tərbiyənin təşəkkülünün çox mühüm şərtlərindən və amillərindən biri ibtidai icma dövrünün insanları arasında maddi əlaqələrin təkamülüdür. Təcrübənin bir adamdan başqasına, bir nəsildən digərinə ötürülməsi yolu ilə bu əlaqələrin davam etdirilməsi və təkmilləşdirilməsi spesifik fəaliyyət növü kimi tərbiyənin inkişafına səbəb oldu. İnsanların ünsiyyət tələbatından yaranan tərbiyə sadə əmək formalarının təkamülü ilə bağlı meydana gəldi" (12, s. 14).

Tədqiqat göstərdi ki, şagirdlərdə dünyagörüşün formalaşdırılmasında sistemli şəkildə təşkil edilən tarix təlimində yeni texnologiyalardan istifadə, tarix üzrə dərsdənkənar və məktəbdənkənar çox yüksək səmərə əldə etməyə zəmin yaradır. Belə ki, dünyagörüşünün formalaşdırılması bir tamdır. Onun fəlsəfi əsasında duran məsələ isə reallığı dərk etmək və təcrübi bacarıqlarla təhsilalanları dərk etməyə sövq etməkdir. Tədrisdə məntiqi yanaşmanın gözlənilməsi və təhsilalanların daxili dünyasında mənəvi, sosial nəticəçıxarma bacarıqlarını dəstəkləyən metodların tətbiq edilməsi çox əhəmiyyətlidir. Bütün bunlar bir-birini tamamlayan və ardıcıl şəkildə davam edən prosesdir. Məsələn, tarixin tədrisində mövzunun daha yaxşı dərk edilməsi, həmin hadisənin real şəkildə şüurda canlandırılması üçün fənlərarası və fəndaxili əlaqələrdən istifadə etməliyik. Burada, coğrafiya fənni xəritələrlə işləmək, zamanlar üzrə regional dəyişiklikləri, iqlimi anlamağa, biologiya fənni vasitəsilə flora və fauna ilə insanların qida ehtiyacları və tələbatlarını, ədəbiyyat fənni yaradıcılıq bacarıqları, inkişaf edən hökmdarları və eyni zamanda onlara mədhiyyələr yazan dövrün şair və yazarlarının tarixi dövrü anlamaq üçün verdiyi töhfəsini və digərlərini qeyd edə bilərik.

Müasir gənclər dünyanı daha açıq və aydın görməyin, öyrənməyin və praktiki olaraq tətbiq etməyin marağındadırlar. Bunu XXI əsrin özünəməxsus xüsusiyyəti tələb edir. Bu tələbatı ödəmək üçün tarix müəllimləri və pedaqoji kollektivlər nə etməlidirlər? Araşdırmalarımız göstərir ki, təhsilalanların dünyagörüşünü XXI əsrin tələblərinə uyğun formalaşdırmağın yolu onlarda idarkı fəallığı yüksəltməkdən keçir. Bunun üçün təhsilalanlarda təlimə marağı motivləşdir-

mək lazımdır. Təlimə marağı yeni təlim texnologiyaları və yeni təlim vasitələri artırır. Həmçinin, təlimin məzmununun elmiliyi, təhsilalanları dünyanın dərki yoluna işıqlandırmalıdır.

**Problemin elmi yeniliyi.** Məqalədə tarixin tədrisində təhsilalanlarda dünyagörüşün formalaşdırılmasının sistemi yaradılmışdır. Yaradılan iş sistemi şagirdlərin dünyagörüşünün inkişafına motiv yaradır.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalədə əldə olunan nəticələrdən irəli gələn müddəalardan orta məktəblərin tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

**Ədəbiyyat:**


1. Аристотель. Сочинения в 4-х томах, т4. / Аристотель. - М.: Мысль, 1983. -с. 63.
2. Abbasov Ə.M., Cavadov İ.A., İbadova B.O., Quliyeva K.R., Sultanova İ.H., Cavadova S.E. Kurikulum bələdçisi (izahlar və tətbiqlər). /-Bakı: Elm və təhsil, -2019. -320 s.
3. Bədəlova Ə. S. Təlim-tərbiyə. -Bakı: ADPU-nəşriyyatı, -2015, -291 s.
4. Əhmədov, A. Təhsilin fəlsəfəsi. "Azərbaycan müəllimi"qəz., 2022, - 3 iyun.
5. Əlizadə, A.A. Antik fəlsəfə tarixi. / A.A. Əlizadə. -Bakı, 2016. -288 s.
6. Əliyev T.F., Namazov A.Ə., R.Y. Qasımov. Fəlsəfə: mühazirələr toplusu. -Bakı, 2016. -326 s.
7. Hacıyev, Z. C. Fəlsəfə. / Z. C. Hacıyev. -Bakı: Turan evi, -2012. - 488 s.
8. İsmayılov, N.İ. Fəlsəfə (fəlsəfi fikrin inkişaf tarixi): Ali məktəb tələbələri üçün dərs vəsaiti / N.İ. İsmayılov. -Bakı, 2018, -142 s.
9. Qasımova, L.N. Pedaqogika / L.N. Qasımova, R.M. Mahmudova. -Bakı: Çaşıoğlu, - 2012. -548 s.
10. Nəzərov M. İnformasiya cəmiyyətində təhsil fəlsəfəsinin vəzifələri və perspektivləri // -Bakı: Geostrategiya, -2021, № 2. -s. 166-170
11. Muradov A, Əzizzadə N. Biliyin inkişafı, dünyagörüşü və iqtisadi artım: iqtisadi-fəlsəfi baxışlarda, AMEA İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr olunmuş "İqtisadi artım və ictimai rifah" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. -Bakı, 2018. -s. 53-60.
12. Rüstəmov, F.A. Pedaqogika tarixi (Xarici ölkələrdə təhsil və pedaqoji fikir tarixi) / F.A. Rüstəmov. -Bakı: Elm və təhsil, -2010. -752 s.


**E-mail:** kmustafayeva@khazar.org

**Rəyçılər:** *ped.elm.dok., prof.* **M.M. Əmirov**
*ped.elm.dok., prof.* **İ.H. Cəbrayılov**
**Redaksiyaya daxil olub**: 21.08.2023